# Energetika naziri BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi ilə görüşüb

**Energetika naziri Pərviz Şahbazov BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**




Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, Vladanka Andreyevanın ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar keçirilən görüşdə Azərbaycan ilə BMT arasında enerji və dayanıqlı inkişaf sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşdə enerji səmərəliliyi və bərpaolunan enerjinin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə əməkdaşlığın, eyni zamanda nazirliyin fəaliyyətinin prioritet istiqamətlərindən olduğu vurğulanıb. Ölkəmizin COP29-a evsahibliyi ilə yanaşı, "yaşıl enerji" və enerji keçidi sahəsində ardıcıl siyasət və təşəbbüslərlə qlobal iqlim gündəliyində liderliyini möhkəmləndirdiyi qeyd olunub. Xüsusilə Azərbaycanın COP30-da elan etdiyi və emissiyaların 2035-ci ilə qədər 40 faiz azaldılması öhdəliyini nəzərdə tutan yeni "Milli Səviyyədə Müəyyən Edilmiş Töhfə"si (NDC) yüksək qiymətləndirilib.

Görüşdə həmçinin "DİM-in 7-ci hədəfi üzrə Azərbaycan üçün Yol Xəritəsi"nin hazırlanmasına toxunulub. Gələn ilin aprelində Bakıda keçirilməsi planlaşdırılan UNESCAP-ın 82-ci Sessiyası çərçivəsində enerji üzrə yan tədbirin təşkilinə hazırlıq məsələləri də müzakirə edilib.

Söhbət zamanı "UNIDO-İƏT Təmiz Enerji Mərkəzi"nin fəaliyyəti, Azərbaycanda bərpaolunan enerji mənbələrinin inkişafı, hidrogen konsepsiyası, regionlararası elektrik enerjisi üzrə interkonnektor layihələri, eləcə də neft-qaz sektorunun dekarbonizasiyası ilə bağlı fikir mübadiləsi aparılıb. BMT ilə əməkdaşlıq çərçivəsində planlaşdırılan tədbirlər nəzərdən keçirilib.

Azərbaycan. - 2025.- 27 dekabr (№273).- S.7.